Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## İşğaldan azad olunmuş ərazilərə "Böyük Qayıdış"

# Azad rayonlara Böyük Qayıdış xarici sərmayələrə geniş qapılar açıb...

**Azad olunmuş ərazilərimizdə həyata keçirilən tikinti - quruculuq, bərpa işləri sözün əsl mənasında xalqımıza böyük ruh verir. Hər kəsin qəlbindən keçir ki, yeni qurulan şəhərlərimizdə, kəndlərimizdə, qəsəbələrimizdə tikilən binalara o da bir daş qoysun.**

Sözsüz ki, təkcə vətəndaşlarımız deyil, həmçinin Azərbaycana dost olan ölkələr Qarabağın bərpa-quruculuq işlərində yaxından iştirak etmək arzusunda olduğunu prosesə hazırlıq dövründə dilə gətirib. Azərbaycana dost ölkələr sevincimiz şərik olmaq istəyiblər, olublar da. Sirr deyil ki, azad olunmuş ərazilərin bərpasına xarici şirkətlər xüsusi maraq göstərir. Deyərdik ki, əksər ölkələr prosesdə iştiraka can atırlar. Azərbaycan Prezidenti isə həmişə deyib ki, bu işə ilk olaraq dost ölkələrin şirkətləri cəlb edilir. Hələ bir il əvvəl Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli məqsədilə yaradılmış Əlaqələndirmə Qərargahının yaydığı məlumata görə, 50-dən çox xarici şirkət işğaldan azad edilmiş ərazilərin bərpası üzrə layihələrdə iştirak etmək üçün müraciət edib. Təsəvvür edin ki, hələ ilkin mərhələdə bu qədər əcnəbi şirkət prosesə qatılmaq istəyində olub, 50-dən çox xarici şirkət Qarabağın bərpası ilə bağlı layihələrdə iştirak etmək istəyini ortaya qoyub.

**"İtaliya Azərbaycanın Qarabağda bərpa işlərində iştirak edən ilk tərəfdaş ölkəsi olub"**

Bir neçə gün əvvəl xarici işlər naziri Ceyhun Bayramov ADA Universitetində "Azərbaycan-İtaliya: çoxşaxəli strateji tərəfdaşlığa gedən yol" adlı konfransda İtaliya Qarabağın bərpasında Azərbaycanın ilk tərəfdaşı olduğunu bildirib: "İtaliya Azərbaycanın Qarabağda bərpa işlərində iştirak edən ilk tərəfdaş ölkəsi olub. Azərbaycan və İtaliya arasında əlaqələr Prezident İlham Əliyevin 2020-ci ildə bu ölkəyə səfərindən sonra daha da möhkəmlənib".

Məlum olduğu kimi İtaliya şirkətləri ilə yanaşı Fransa, İsrail şirkətləri də Qarabağın quruculuq prosesində pay alacaqlar.

Təbii ki, qardaş Türkiyənin, dost Pakistanın şirkətləri də bu prosesdə aparıcı rola malikdir. Ekspertlər hesab edirlər ki, xarici şirkətlərin Qarabağaın tikinti-quruculuq işlərinə töhfə verməsi müsbət haldır. Amma təəssüf doğuran hal ondan ibarətdir ki, heç bir aidiyyatı beynəlxalq təşkilatlar Azərbaycanda başlayan tikinti-quruculuq işlərinə bir manat da olsun vəsait ayırmır.



**"Kim Azərbaycanın yanındadırsa, Azərbaycan da onlara dəyər verir"**

Qarabağ Azadlıq Təşkilatının (QAT) sədri Akif Nağı "Bakı-Xəbər"ə şərhində bildirdi ki, "Böyük Qayıdış"a bağlı artıq böyük planlar həyata keçirilir. "Düzdür, ağır və çətin bir prosesdir. Orada əvvəlcə bir infrastruktur yaradılmalıdır. Kommunikasiya xəttləri çəkilməlidir. Bütün bu işlər görülməlidir ki, sonradan daha sürətli şəkildə bərpa işləri getsin. Bildiyimiz qədər bu yöndə işlər gedir. Xarici şirkətlərin Qarabağın qurculuq işlərinə kütləvi maraq göstərməsi təbiidir. Burada sözsüz ki, biznes maraqları da var, bu prosesdə iştirak edin gəlir əldə etmək istəyirlər. Azərbaycan rəhbərliyi əvvəlcədən bu məsələyə öz münasibətini bildirib. Bura kimlərsə biznes hədəfi, meydançası kimi baxmamalıdır. Bu prosesdə iştirak həm də Azərbaycana, Azərbaycanın haqq işinə, qələbəsinə münasibətin təzahürüdür. Ona görə də, cənab Prezident də bildirirdi ki, ilk növbədə Azərbaycana dost ölkələr, Azərbaycanın qələbəsinə sevinən dövlətlər bu işdə olmalıdır. Bu həm mənəvi, həm də siyasi baxımdan çox əhəmiyyətli bir məsələdir. Kim Azərbaycanın yanındadırsa Azərbaycan da onlara dəyər verir".

**"Azərbaycan bu layihələrdə iştirak etmək üçün müxtəlif xarici şirkətlərə şərait yaradır"**

A.Nağı hesab edir ki, Azərbaycanın böyük zəfərini hər ölkə sevinclə qarşılamadı, buna kölgə salmaq istəyənlər çox oldu, ermənipərəst qüvvələr xoşagəlməzliklər törətdi. "Bizim böyük zəfərimizə sevinənlər də, iftra atanlar da oldu. Ona görə hesab edirəm ki, Qarabağın bərpasına maraq göstərənlərin çoxu qələbəmizə sevindikləri üçün bu addımı atırlar. Azərbaycan xarici investorlar üçün maraqlı ölkədir. Buna görə də Azərbaycanın azad olunmuş ərazilərinə maraq çoxdur. Azərbaycanın işğaldan azad olunan ərazilərinin bərpa edilməsi olduqca həssas bir məsələdir və bütün mənalarda bizim üçün mahiyyəti ayrıdır. Həmin prosesdə iştirak edən şirkətlərə və dövlətlərə münasibətlər də müsbətdir. Azərbaycan bu layihələrdə iştirak etmək üçün müxtəlif xarici şirkətlərə şərait yaradır. Bu şirkətlər də Azərbaycanın rəğbətini qazanmağa çalışırlar. Qarabağda aparılan quruculuq işləri layihələrində iştirakla yanaşı həm başqa layihələrdə iştirak etmək istəyirlər. Qardaş Türkiyə Azərbaycanın qələbəsindən sevndiyi üçün daha çox layihələrdə iş.tirak edib dəstək göstərirlər. Yəni özlərinə borc bilirlər ki, bu bərpa prosesində iştirak etsinlər. Bu gün Qarabağın quruculuq-bərpa prosesində çox böyük, çoxminli tikinti cəbhəsi formalaşıb. Azad edilmiş ərazilərində həyata keçirilən bərpa və yenidənqurma layihələrində dünyanın bir sıra şirkətlərinin təmsil olunması çox müsbət haldır. Bu həm də ona görə yaxşıdır ki, o ölkələr Ermənistanın bizim ərazilərdə törətdiyi vəhşilikləri bilavasitə görürlər" - deyə A.Nağı vurğuladı.

*İradə SARIYEVA*

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**